III MDB OYUNLARI
AZƏRBAYCAN
2025

# Hər qəlbdə bir qələbə!

## Son məlumat

Daha ətraflı məlumat üçün III MDB Oyunları 2025-in rəsmi saytına daxil olun.

www.azerbaijan2025.com

## Yarış cədvəli

**Rəsmi ad**

III MDB Oyunları

**Oyunların keçiriləcəyi dövr**

28 sentyabr - 8 oktyabr 2025-ci il

**Açılış və bağlanış mərasimi**

Açılış mərasimi • 28 sentyabr 2025, 19:00
Bağlanış mərasimi • 8 oktyabr 2025, 19:00

Məkan: Gəncə Şəhər Stadionu

> "İdmana olan diqqət və qayğı hər bir ölkənin dövlət siyasəti olmalıdır"

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti




# Vacib rəqəmlər

7 şəhər

12 idman məkanı

23 idman növü

1. Gəncə İdman Sarayı
2. Gəncə Olimpiya İdman Kompleksi
3. Basketbol Meydançası, Gəncə
4. Gəncə Şəhər Stadionu
5. Gəncə Olimpiya İdman Kompleksi
6. Xankəndi Şəhər Stadionu
7. Yevlax Olimpiya İdman Kompleksi
8. "Kür" Olimpiya Tədris-İdman Mərkəzi Mingəçevir
9. Şəki Olimpiya İdman Kompleksi
10. Şəki Şəhər Stadionu
11. Qəbələ Olimpiya İdman Kompleksi
12. Qəbələ Şəhər Stadionu
13. Qəbələ Atıcılıq Klubu

GYD

GNJ

1. Qəbələ
2. Şəki
3. Mingəçevir
4. Yevlax
5. Gəncə
6. Göygöl
7. Xankəndi
8. Bakı

# İDMAN NÖVLƏRİ

- Kamandan oxatma
- Badminton
- 3x3 basketbol
- Boks
- Kanoe
- Çövkən
- Qılıncoynatma
- Futbol U-16
- Yunan-Roma güləşi
- Cüdo
- Karate
- Bədii gimnastika
- Avarçəkmə
- Sambo
- Güllə atıcılığı
- Stend atıcılığı
- Üzgüçülük
- Stolüstü tennis
- Taekvondo
- Batut gimnastikası
- Voleybol
- Qadın güləşi
- Sərbəst güləş

# YENİLİKLƏR

Qeydiyyatdan keçmiş ölkələr

**12**

**Azərbaycan daxil olmaqla**

Nümayəndə heyətlərinin ümumi sayı

**2313**

Onlardan idmançıların sayı

**1619**

Azərbaycan 340 idmançı

Pakistan 4 idmançı

Türkiyə 38 idmançı

Rusiya 262 idmançı

Qazaxıstan 147 idmançı

Belarus 240 idmançı

Türkmənistan 48 idmançı

Tacikistan 144 idmançı

Özbəkistan 254 idmançı

Qırğızıstan 126 idmançı

Oman 4 idmançı

Küveyt 6 idmançı

III MDB OYUNLARI
AZƏRBAYCAN
2025

# XƏBƏR LENTİ

III MDB Oyunlarında akkreditasiya mərkəzlərinin fəaliyyəti.

Aşağıda göstərilən akkreditasiya mərkəzləri Oyunlar başlamadan əvvəl müvafiq idman obyektləri üçün akkreditasiyaları təqdim edəcək:

- Qəbələ Atıcılıq Mərkəzi
- Göygöl Olimpiya İdman Kompleksi
- "Kür" Olimpiya Tədris-İdman Mərkəzi (Mingəçevir)
- Şəki Olimpiya İdman Kompleksi
- Yevlax Olimpiya İdman Kompleksi
- Xankəndi Konqres Mərkəzi
- Gəncə İdman Sarayı

Oyunlar zamanı bütün obyektlərdə akkreditasiya dəstək məntəqələri fəaliyyət göstərəcək.




## Media akkreditasiyası

Hazırda həm yerli, həm də beynəlxalq media qurumlarından 391 nümayəndə akkreditasiyadan keçmişdir. Qeyd edək ki, akkreditasiya prosesi 8 avqust 2025-ci ildə başa çatmışdır.

https://azerbaijan2025.com/media-accreditation/




# "STARTA DOĞRU"

28 sentyabr – 8 oktyabr tarixlərində Azərbaycan III MDB Oyunlarına ev sahibliyi edəcək. Bu beynəlxalq multi-idman tədbiri regionun ən güclü gənc idmançılarını bir araya gətirəcək.

Ən çox gözlənilən idman növlərindən biri isə sambo olacaq. Sambo xalçasına 2007–2009-cu il təvəllüdlü səkkiz azərbaycanlı idmançı çıxacaq. Komanda üzvləri qarşıdakı yarış üçün yüksək hədəflər qoyublar.

Azərbaycan sambo üzrə yeniyetmələrdən ibarət yığma komandasının baş məşqçisi Yaqub Abdullayev qeyd edib ki, Oyunlara hazırlıq prosesi bir neçə mərhələdən ibarət olacaq:

"Avqust ayında Abşeron Olimpiya İdman Kompleksində təlim-məşq toplanışımız keçirilir. Əsas diqqət fiziki hazırlığın yaxşılaşdırılmasına yönələcək. Sentyabrda hazırlığın ikinci mərhələsi başlayacaq – texniki-taktiki məşqlərə fokuslanacağıq. Xalça üzərində daha çox işləyəcəyik, əsas elementləri təkmilləşdirəcəyik".

Baş məşqçinin sözlərinə görə, komandanın heyəti artıq müəyyən olunub və hazırlıq plan üzrə davam edir:

"Məşq üçün ideal şərait yaradılıb. Sambo yarışlarında səkkiz ölkədən idmançıların iştirakı gözlənilir. Bunlar ən güclü sambo məktəblərindən sayılan Rusiya, Belarus və Mərkəzi Asiya ölkələridir. Onların heyətində Avropa və dünya çempionları var. Lakin bizim yığmamız da onlardan geri qalmır: komandamızda artıq beynəlxalq arenada medallar qazanan idmançılar var. Ən yüksək nəticələrə ümid edirik".

Azərbaycan samboçuları MDB Oyunlarında artıq öz sözlərini deməyi bacarıblar. Belə ki, 2021-ci ildə Kazanda keçirilən ilk yarışda 3 qızıl, 1 gümüş və 1 bürünc medal qazanaraq ən uğurlu komandalar sırasında yer alıblar..

"O zaman samboçular bütün idman növləri arasında ən yüksək nəticəyə imza atmışdılar. İndi isə öz doğma divarlarımız arasında həmin uğuru təkrarlamaq və daha çox medal qazanmaq istəyirik",– deyə baş məşqçi bildirdi.

# MÜKAFATLANDIRMA

Sizə III MDB Oyunlarının medallarını təqdim edirik.
Bu medallar sadəcə mükafat deyil, idmançıların qələbəsinin, gücünün və döyüş ruhunun rəmzidir. Hər medalın üzərində Oyunların rəsmi loqosu təsvir olunub və bu, birliyi və idman ustalığını simvolizə edir.

Medallar aşağıdakı kimi bölünür:

| Qızıl | Gümüş | Bürünc |
|---|---|---|
| 505 | 505 | 684 |




Bundan əlavə, qalib komandanın uğuruna ən çox töhfə verən idmançının xüsusi mükafatlandırılması nəzərdə tutulub.

Növlər:

- Futbol U-16
- Voleybol (q/k)
- 3x3 basketbol (q/k)

# İDMAN MƏKANLARI

Kamandan oxatma

## XANKƏNDİ ŞƏHƏR STADİONU

Xankəndi şəhər stadionunun inşasına 1955-ci ildə başlanılmış, 1956-cı ildə isə istifadəyə verilmişdir. Uzun illər ərzində stadion bölgənin əsas idman məkanlarından biri olmuşdur. 1991-ci ildən sonra şəhərin tarixi adı bərpa edildikdə, stadion yenidən "Xankəndi şəhər stadionu" adlandırılmışdır.







SSRİ dövründə burada Qarabağ Xankəndi FK öz ev oyunlarını keçirirdi. 2023-cü ildə isə stadion Azərbaycanın nəzarəti altına qayıtmış və ölkənin idman həyatında yeni bir mərhələnin başlanğıcı kimi dəyərləndirilmişdir. Həmin ilin oktyabrında Azərbaycan mətbuatında "Qarabağ Ağdam" klubunun gələcək mövsümdən etibarən Premyer Liqa oyunlarını Xankəndi stadionunda keçirə biləcəyi barədə xəbərlər yayılmışdır. Bunun üçün ilk mərhələdə arenada bərpa və yenidənqurma işlərinin aparılması nəzərdə tutulmuşdur.
Xankəndi stadionunun yeni tarixi səhifəsi isə beynəlxalq tədbirlərlə açılır. Belə ki, 2025-ci ildə keçiriləcək III MDB Oyunları zamanı burada oxatma (kamandan oxatma) üzrə yarışların təşkili planlaşdırılıb. Bu, stadionun yalnız futbol deyil, digər idman növləri üçün də mühüm mərkəzə çevriləcəyini göstərir.

Bu gün Xankəndi şəhər stadionu təkcə bir idman qurğusu deyil, həm də Qarabağın yenidən dirçəlişinin və Azərbaycan idman həyatına qovuşmasının rəmzidir.



# PERSONA

## ZEMFİRA MEFTAHƏTDİNOVA

Zemfira Meftahətdinova Azərbaycan idman tarixində xüsusi yeri olan görkəmli stend atıcısıdır. Zemfira Meftahətdinova 2000-ci ildə Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında qızıl medal qazanaraq müstəqil Azərbaycanın bayrağı altında Olimpiya Oyunlarında qalib gələn ilk idmançı olub. 2004-cü ildə Afina şəhərində təşkil olunan XXVIII Yay Olimpiya Oyunlarında isə bürünc medal əldə edib.

O, 1986–1991-ci illərdə SSRİ yığmasının, 1991–2014-cü illərdə isə Azərbaycan milli yığma komandasının heyətində çıxış edib. Onun karyerası Dünya və Avropa çempionatlarında qazandığı uğurlarla da zəngindir. 1993, 1997 və 2003-cü illərdə Avropa çempionu olub. Komanda yarışlarında isə 1987 və 1990-cı illərdə qızıl medala sahib çıxıb. Ümumilikdə beşqat Avropa çempionu olan Zemfira Meftahətdinova, həmçinin 1995 və 2001-ci illərdə keçirilən Dünya çempionatlarının qalibi olub.

İdmanla yanaşı, təşkilati fəaliyyətində də uğurla fərqlənib. 2015–2023-cü illərdə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinə rəhbərlik edib. 2021-ci ildən etibarən həm Azərbaycan Atıcılıq Federasiyasının, həm də Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti vəzifəsində çalışır.

Azərbaycan idmanına verdiyi böyük töhfələrə görə dəfələrlə dövlət mükafatları ilə təltif olunub. 1991-ci ildə Azərbaycan SSR-in Fəxri fərmanı, 1995 və 2004-cü illərdə "Tərəqqi" medalı, 2000-ci ildə "Şöhrət" ordeni, 2022-ci ildə Prezidentin fəxri diplomu ilə mükafatlandırılıb. Bundan əlavə, daxili işlər orqanlarındakı xidmətlərinə görə 2018-ci ildə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Zemfira Meftahətdinova həm idmançı, həm də təşkilatçı kimi Azərbaycan idmanının inkişafında misilsiz xidmətlər göstərmiş şəxsiyyətlərdən biridir.








# İDMAN BİRLƏŞDİRİR!

FK "Qarabağ" – Azərbaycanın Ağdam şəhərini təmsil edən peşəkar futbol klubudur. Klubun əsası 1951-ci ildə Ağdamda "Məhsul" komandası yaradılmaqla qoyulmuşdur. Sonralar "Şəfəq" və "Kooperator" adları ilə çıxış edən komanda 1987-ci ildən "Qarabağ" adını daşıyır.

1992-ci ildən Azərbaycan çempionatında çıxış edən "Qarabağ", ölkənin ən titullu klubudur. Komanda tarixində 12 dəfə Azərbaycan çempionu olub və 8 dəfə ölkə kubokunu qazanıb.
1993-cü ildə Ağdam şəhəri işğal olunduqdan sonra komanda ev oyunlarını Bakıda və digər şəhərlərdə keçirməyə başlayıb. Buna baxmayaraq, Qarabağ FK həm milli, həm də beynəlxalq arenada uğurları ilə Azərbaycan futbolunun simvollarından birinə çevrilib.

12 dəfə UEFA-nın klub turnirlərinin əsas (qrup və ya liqa) mərhələlərinə vəsiqə qazanmaqla Azərbaycan futbolunda tarix yazıb. "Qarabağ" 9 dəfə Avropa Liqası, 2 dəfə Çempionlar Liqası, 1 dəfə isə Konfrans Liqasının əsas mərhələsində iştirak edib. Komanda 2021/22 mövsümündə Konfrans Liqasının qrup mərhələsini keçməklə Azərbaycan futbolu tarixində növbəti ilkə nail oldu. Bir il sonra "Qarabağ" eyni uğuru təkrarladı. 2023/24 mövsümündə isə növbəti ilk qeydə alındı. "Qarabağ" Avropa Liqasında qrup ikincisi olmaqla Azərbaycan futbolu tarixinə bu turnirdə pley-offa yüksələn ilk komanda kimi düşüb. Pley-off səddini də uğurla adlayan komanda 1/8 finala adını yazdırmaqla tarixdə yeni səhifə açıb. Bu mövsüm "Qarabağ" tarixində ikinçi dəfə Çempionlar Liqasının liqa mərhələsinə vəsiqəni əldə edib.

Bu nailiyyətlərin əsas memarı, Azərbaycan futbol tarixinin ən uğurlu baş məşqçisi Qurban Qurbanovdur. Qurban Qurbanovun "Qarabağ"dakı fəaliyyəti təkcə yerli deyil, beynəlxalq futbol aləmində də geniş rezonans doğurub.

Bu gün "Qarabağ" yalnız idman uğurları ilə deyil, həm də Qarabağın azadlıq və möhkəmlik rəmzi kimi tanınır.

# QIZIL QƏLƏBƏ

İlham Zəkiyev Azərbaycanın görkəmli paracüdoçusudur. O Azərbaycan idman  tarixində ilk paralimpiya çempionu kimi yadda qalıb. Afina-2004-ün qalibi 4 il sonra öz uğurunu təkrarlayaraq ikiqat Paralimpiya çempionu oldu. Zəkiyev həmçinin üçqat dünya çempionu (2007, 2010 və 2022-ci ildə komanda yarışlarında), səkkizqat Avropa çempionu və I Avropa Oyunlarının qalibidir. Azərbaycanın Əməkdar İdman Ustası, Əməkdar məşqçisi və 7-ci dan qara kəmər sahibidir.

1999-cu ildə  Qarabağda hərbi xidmət zamanı aldığı snayper gülləsindən sonra görmə qabiliyyətini itirib. Buna baxmayaraq, əzmkarlığı sayəsində cüdo üzrə böyük uğurlar qazanaraq Azərbaycanın idman tarixinə adını qızıl hərflərlə yazdırıb.

İlham Zəkiyev həmçinin Azərbaycan idmanının simvollarından biri kimi 2008, 2012 və 2016-cı illərdə Paralimpiya Oyunlarında ölkənin bayraqdarı olub. London-2012, Tokio-2020 və Paris-2024-ün bürünc medallarını qazanıb. Məhz İlham Zəkiyev Bakı 2015 I Avropa Oyunlarının məşəlini yandıran idmançı olub

İlham Zəkiyev "Şöhrət" ordeni, "Tərəqqi" medalı, "Vətənə xidmətə görə" ordeninin tam kavaleri və "Vətən uğrunda" medalı ilə mükafatlandırılıb.

Onun həyat yolu əzmkarlığın, iradənin və Vətənə bağlılığın simvolu hesab olunur.





# KÖNÜLLÜ GÜCÜ

Bu ilin ən iri idman tədbirlərindən biri olan III MDB Oyunlarında 3000 könüllü fəaliyyət göstərəcək.

Ən çox könüllü – 1250 nəfər Gəncə şəhərində, digər şəhər və rayonlarda isə Qəbələdə 600, Şəkidə 350, Mingəçevirdə 255, Yevlaxda 190, Xankəndidə 185, Göygöldə isə 175 könüllü iştirak edəcək.

III MDB Oyunları Könüllülər proqramına maraq yüksəkdir. Proqramın qeydiyyat portalından 9700-dən çox namizəd müraciət edib. 24 iyun tarixində başlanılan müsahibə mərhələsində isə 7200 namizəd iştirak edib və seçim prosesi uğurla yekunlaşıb. Hazırda könüllülərin yarışlara tam hazır olması üçün təlimlər davam etdirilir.

Könüllülər Oyunlar zamanı idman əməliyyatları, insan resursları və işçi qüvvəsi, məkanın idarə olunması, tədbirlər və mərasimlər, media əməliyyatları kimi əsas istiqamətlərdə fəaliyyət göstərəcəklər. Onlar idmançıların, qonaqların və media nümayəndələrinin qarşılanması, yönləndirilməsi və suallarının cavablandırılması ilə məşğul olacaqlar.

Könüllülər III MDB Oyunlarının ayrılmaz hissəsi olmaqla, yarışların yüksək səviyyədə keçirilməsinə mühüm töhfə verəcək və bu möhtəşəm idman bayramının uğurlu təşkilində əvəzsiz rol oynayacaqlar.



# Bəbir və Leylanın söhbəti



Salam, Leyla! III MDB Oyunlarını səbirsizliklə gözləyirsən?



Əlbəttə! Eşitdim ki, Xankəndidə kamandan oxatma üzrə yarışlar olacaq.



Super! Gəl ora birlikdə gedək!



Gedək !Mən Xankəndidə gəzmək istəyirəm. Orada hələ olmamışam



Bəs medalları görmüsən? Nə qədər gözəldirlər — qızıl, gümüş, bürünc, üstəlik qalib komandanın ən yaxşı oyunçusuna xüsusi mükafat.



Ruhlandırıcıdır! Xüsusilə oyunları canlı izləmək!

# TƏŞKİLATÇILAR

AZE
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

Baku city circuit

Azerbaijan2025.com